# Humanitar elmlərin tarixi və nəzəriyyəsində tolerantlıq probleminin qoyuluşu

**Ruqiyyə Akif qızı Tağıyeva**
*Gəncə Dövlət Universitetinin müəllimi,*
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
**E-mail:** abayramova@ranbler.ru

**Rəyçilər:** p.ü.e.d., prof. Ş.T. Tağıyev,
p.ü.f.d.T.Ə. Nəbiyeva

**Açar sözlər:** tolerantlıq tərbiyəsi, pedaqoji proses, yaşın senzitivliyi, tolerantlığın dini konsepsiya sistemi, dözümlülüyün vəzifəsi, vicdan azadlığı

**Ключевые слова:** воспитание толерантности, педагогический процесс, возрастная сензитивность, религиозно-концептуальная система толерантности, задача толерантности, свобода совести

**Key words:** tolerance education, pedagogical process, age sensitivity, religious-conceptual system of tolerance, the problem of tolerance, freedom of conscience

Tolerantlığın dini konsepsiya sistemi öz inkişafını bu anlayışın mahiyyəti ilə bağlı fəlsəfi düşüncələrdə də tapır. Müxtəlif dövrlərdə və müxtəlif fəlsəfi məktəb və mənəvi-ideoloji istiqamətlərdə biz “dözümlülük” (“tolerantlıq”) anlayışına müəyyən təriflər və buna bənzər ideyalar tapa bilərik: tərbiyə və biliklərin hesabına etirasların cilovlanması (Cokrat); intellektual özünümüdafiyə (Platon); “qızıl orta məxrəcə” cəhd (Aristotel); nicat və peşmanlıq (K.S. Tertuliani); əzablara qalib gəlmək (F. Akvinski, İ.M. Ekxart); tamaha qalib gəlmək (E. Potterdamski); simpatiya (A. Smit, D. Yum); səmərəli özünənəzarət (L.K.Voveranq); mülayimliyə meyl (F.V.Veys); mərhəmət (J.-J. Russo, A. Şopenhauer); ümumi insani borc (İ. Kant); tarazlığın müdrik ölçüsünü saxlamaq (İ.V. Höte); dini şövq (U. Cems); prinsiplərin qorunması (K. Yaspers); susmağın fenomeni (T.Karleyl); öz ehtiyaclarına və istəklərinə nail olmaq üçün subyektin reallıqla kompromisi (X. Plesner).

Dünya fəlsəfi fikrində “dözümlülüyün” başqa “davranış aktlarından” ayrılması, bu anlayış üçün sistemyaradıcı konstruksiyaların axtarışı ilə bağlı məsələlər də qaldırılmışdır (S.L. Frank, N.A. Berdyayev və b.). Bu işlərdə tədqiq etdiyimiz anlayışın aşağıdakı təriflərini qeyd etmək olar: dözümlülük “orta məxrəci axtarmaq məharəti” kimi (D.N. Danilevski), insanın fizioloji xarakteristikası (P.Y. Çaadayev); başqasının azadlığına imkan (V. Solovyev); dözümlülük siyasi mötədillik və vətəndaş cəsarəti kimi (S.L. Frank); dözümlülük mənəvi şüurluluq səviyyəsi ilə müəyyən edilir (N.A. Berdyayev); dözümlülük başqasına mərhəmətli münasibət kimi (S.V. Meyen); ya rəhmliliklə (susmaqla), ya da hərəkətdə (dialoqda) müşahidə edilən daxili vəziyyət (Y.A. İşenko); tolerantlıq başqasını olduğu kimi qəbul etməyə maraqlı olan hazırlıq kimi (Y.A. Şneyder).

Respublikamızda da bu problemlə bağlı son dövrlərdə fəlsəfi, pedaqoji, psixoloji xarakterli tədqiqatlar aparılmağa başlanılmış və ilkin nəticələr əldə olunmuşdur.

Prof. R. Aslanovanın “Qloballaşma və mədəni müxtəliflik” (1), S. Bahadurqızının “Dini dözümlülüyün Azərbaycan nümunəsi beynəlxalq diqqət mərkəzində” (“Təhsil problemləri” qəz., 2013, 01-07 mart), İ.B. Əmirəliyevanın “Ali məktəb tələbələrində tolerantlığın formalaşdırılması. Monoqrafiya” (Bakı, Mütərcim, 2016), P.B. Əliyevin “Tolerantlıq tərbiyəsinin sis-

temi" (2), "Tolerantlıq prinsipinin təlim-tərbiyə işində nəzərə alınması haqqında" (Azərbaycan məktəbi, 2007, № 2), "Yeniyetmə məktəblilərin tolerantlıq tərbiyəsi", "Məktəblilərin tolerant mədəniyyətinin inkişafı", "Məktəblilərin tolerant tərbiyəsində gender probleminin nəzərə alınması" ("Təhsil müəssisələrində tərbiyə işinin təşkilinin nəzəri və praktik problemləri" kitabında. Bakı: Mütərcim, 2011) adlı monoqrafiya və məqalələri tolerantlıq tərbiyəsi probleminin müxtəlif aspektlərdən həllinə xidmət edən dəyərli əsərlərdir. Bunlarda da problemin mahiyyəti müxtəlif prizmalardan şərh olunur.

Tolerantlıq problemi antik fəlsəfədə belə aktual idi. Aristotel "Nikomaks etikası"nda yazırdı ki, "yaxşı adam o deyil ki, "özünə qarşı anlaqlı hərəkət edir", yaxşı adam o adamdır ki, "bu cür başqasına münasibət bəsləyir; bu isə - çətin işdir" (5, s.85). Rum imperatoru M. Avrelinin "Özümə qarşı" və ya "Özümlə tək" yazılarında həmsöhbətinə qarşı tolerant münasibət problemi qaldırılır (4, s.38-40).

Bir şox filosofların yaradıcılıqlarında dözümlülüyün vəzifəsi vətəndaş sülhünü və haqsızlıqlardan müdafiəsini təmin edən amil kimi verilmişdir. Bu ideyalar M. Montenin "Təcrübələr"i ilə (1588 il) başlayaraq və J. Lokkun "Din dözümlülüyü haqqında məktub" (1690 il), J.-J. Russonun "Əxlaq haqqında məktublar" (1758 il), "Yuliya və ya Yeni Eloiza" (1758 il) və əsasən də onun tərəfkeşi olan Volterlə "Fəlsəfi məktublar"da (1763 il) qurtarır. Bununla belə yeni dövrün dünyəvi mütəfəkkirləri dini azadlığın və dini dözümlülüyün ideyalarını müdafiə edirdilər.

Tədqiq etdiyimiz problem baxımından İ. Kantın yaradıcılığını da qeyd etmək vacibdir. O, tolerantlığı insanın daxili "*mən*"inə yönəldir. Alman mütəfəkkirinin işlərində, məsələn "Ümumdünya vətəndaşlıq planında ümumi tarixi ideyalar"ında (1784 г.) tolerantlıq – "başqasına" münasibət probleminin mahiyyətinə dair düsüncələrə rast gəlmək olur. İ. Kantın fikrinə görə, insanda iki əks meyllilik var: özünə bənzərlərlə ünsiyyətə maraq və özünü təcrid etməyə cəhd. Belə bir situasiyada başqa carə qalmır, məcburdur ki, öz yaxınları ilə birgə yaşamağa cəhd göstərsin, "onlara dözə bilmir, lakin onlarsız da yaşaya bilmir" (9, s.11). Başqa sözlə, insan ona yad olan hər bir şeyə öz təbii intolerantlığının öhdəsindən gələ bilir, öz ictimai qiymətini və yerini əldə edir. İ. Kant öz "İnsan təbiətindəki əzəli qəzəb haqqında" (1792) əsərində göstərir ki, hər bir insana "hansısa etirazından", "yenilikdən", "ürəyindəki dəyişiklikdən" əl çəkmək də vacibdir (8, s. 51). Bu islahat nəticəsində təbii uyğunsuzluq, özünəsevgi, rəqabət, başqalarının üzərində hakimiyyət və tabeçilik yerinə öz borcunu dərk edərək tələblərə tabe olmaq yaranır: "Öz simanda və başqasının simasında bəşəriyyətə qarşı hər zaman vasitə kimi yox, məqsəd kimi hərəkət et" (8, s. 270).

Tədqiq etdiyimiz problemin həllinə xüsusi töhfə L.N. Tolstoy (zülmə qarşı zorakılıq göstərməmək konsepsiyası), A. Şveyçer (itaət dünyəvi duyum kimi konsepsiyası), N.K. Rerix (dözümlülük qarşılıqlı fəaliyyətin aktiv forması kimi konsepsiyası) tərəfindən verilmişdir.

Dözümlülük probleminə rus filosoflarından L.N. İlinin, M.M. Tareyevin, S.N. Trubeskoyun və b. əsərlərində də toxunulmuşdur.

M.M. Tareyev dözümlülük ilə səbri eyniləşdirir və göstərir ki, "haqlı-əzabların haqsızlığında möhkəmlənir" (13, s. 181).

L.N. İlin itaəti mənəvi səbirlə əlaqələndirir və hesab edir ki, itaət məhəbbət yaradır, insanın dəyərini çoxaldır və mənəviyyatca yüksəldir. O, ruhun təkmilləşdirilməsinə, yaradıcı aktivliyə gətirən səbrin fəal formasını qəbul edir (7).

S.N. Trubeskoy vicdanı dözümlülüyün dəyərli meyarı hesab edir: "Yalnız onun vasitəsilə insan anlayır ki, yaxşılıq və dözümlülük hər şeyə qarşı ümumi öhdəlikdir..., və o zaman o həqiqi və qiymətlidir ki, təmənnasızdır, insan heç bir mənfəət məqsədi güdmür və yaxınlarına

anlayışlı münasibət bəsləyir" (14, s. 289).

Dini dözümlülük haqqında V.V. Rozanovun fikirləri də diqqətəlayiqdir. Onun üçün dözümlülük – biri-birinin qiymətini dərk etməkdədir, "bərabər səviyyədə söhbətdə", "müqəddəsliyin əzabda olduğunu" boynuna almaqdadır (11, s. 424).

Təbiətin bəxş etdiyi təbii haqq kimi dini azadlıq anlamı hər bir vətəndaşa azad dini sitayişə və bütün dinlərin bərabərliyinə imkan verir. Bu isə Respublikamızın müstəqillik əldə etdiyi ilk gündən başlayaraq insan hüquqları ilə bağlı demokratik milli qanunvericiliyimizdə öz əksini tapmışdır: "Heç kim öz, hətta dini fikirlərini deməkdə çəkinməməlidir, çünki bu, qanun tərəfindən qoyulmuş ictimai asayişi pozmur", Azərbaycan Respublikasının Konstitusiyası (27 noyabr 1995 il) azsaylı xalqların azadlıqlarının müdafiəsi ilə bərabər dini inanclar azadlığını da təmin edir.

Vicdan azadlığının məzmun prinsipi tədricən plüralistik ideyaların etirafına gətirib çıxardı. Vicdan azadlığı prinsipinə yanaşmada bir çox yeniliklər ikinci dünya müharibəsindən sonra yarandı. Xüsusi rol burada millətlərarası təşkilatlar, ilk növbədə BMT-nin üzərinə düşdü. Vicdan azadlığı prinsipinin hər tərəfli dərindən işlənməsi, onun sığortasının, hüquqi və əxlaqi məqamlarının dəqiq təsbit edilməsi məlum sənədlərdə, həmçinin 10 dekabr 1948 ildə BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş insan haqları Ümumi Deklarasiyasında, 16 noyabr 1995-ci ildən YUNESKO-nun tolerantlıq prinsip Deklarasiyasında öz əksini tapmışdır.

YUNESKO və BMT-nin tolerantlığa qarşı çağırışın əsas məqsədi ondan ibarət olmuşdur ki, onu "insanın daxilində, sonra isə insanlar arasında münasibətləri müəyyən edən və formalaşdıran sosial-siyasi mexanizmlər" də təsdiq etsin. Bu məsələlər beynəlxalq hüquq, sosial institutlar, ədliyyə, təhsil, mədəniyyət, kommunikasiya kimi sahələrdə həyata keçirilməsi konkret mümkündür, qeyd etmək lazımdır ki, onların hamısı birgə məsuliyyət etikası olan vacib bir məsələdə birləşirlər.

Son illər ərzində beynəlxalq təşkilatlar tərəfindən qəbul olunmuş sənədlərdə, qanunlarla sığortalanmış və anadan olandan ona məxsus olan insan haqları və azadlığının təsdiqlənməsində yeni məqamlar yaranmışdır. Burada əsas dönüş nöqtəsi o hesab olunur ki, vicdan azadlığı tək hər hansı dini baxışlara itaət və ya inkar etmək hüququ kimi deyil, daha geniş anlamdadır: azad fikir, vicdan, din və inanclar, onları azad ifadə etmək haqları, hər hansı sülhsevər-materialist, idealist və ya dualistik təsəvvürlər haqqı, vətəndaşların şəxsiyyətinə, hüquq və azadlıqlarına toxunulmayan sosial-siyasi və etik doktrinalar. Dövlət, hakimiyyət, hakim orqanlar sülhsevər münasibətlərdə nəinki bitərəf qalmamalı, onlar həm də qarşılıqlı əməkdaşlıq, dözümlülük mühiti üçün şərait yaratmağa borcludurlar. Milli azlıqların etnik, mədəni, dil və dini özəlliyi qorunmalıdır, hər hansı dini və ideoloji təqib formaları qadağandır.

Beynəlxalq sənədlərdə müəyyən olunmuş bu problem üzrə əsas müddəalar bir çox ölkələrin qanunvericilik qərarlarında öz əksini tapmışdır. Bizim ölkə Konstitusiyasında qeyd olunur ki, müxtəlif irq və millətlərdən olan Azərbaycan vətəndaşları bərabər hüquqlara malikdirlər və həyata keçirilməsi ölkənin bütün millət və xalqlarının hərtərəfli inkişafı və yaxınlaşmasını təmin edir; Azərbaycan Respublikasının hər bir vətəndaşının borcu – çoxmillətli Azərbaycan dövlətinin digər vətəndaşlarının, millətlərin, xalqların milli ləyaqətinə hörmət etməkdir.

Qeyd etmək lazımdır ki, bir sıra filosoflar tolerantlıq probleminə daha geniş fəlsəfi problem olan "*Mən və digəri*" kontekstində yanaşırlar. P. Kropotkinin, A. Kamyunun, K. Yaspersin, N.A. Berdyayevin, İ.G. Gerderin və başqalarının əsərləri bu məsələyə həsr edilmişdir.

Araşdırılan problemin tədqiqi tarixində N.A. Berdyayev nəzərə çarpan bir iz buraxmışdır. Ümumbəşəri və milli münasibətlər problemini irəli sürərək, o, əsas şərt olaraq bəşəriyyətin birliyinə, inkişafda olan milli özünəməxsuluğun qarşılıqlı asılılığına, insanlığa, qarşılıqlı tole-

rantlığa, xalqların qardaşlığına və bu qardaşlıq olmadan milli individuallığın mümkünsüzlüyünə prinsipial əhəmiyyət verirdi. O, inanırdı ki, milli hiss insana nəsib olan bütün xüsusiyyətlərdən daha kövrək və həssasdır, ona görə bir tələbə ilə ünsiyyət qurarkən "həm insanın özünün, həm də onun aid olan millətin milli hissini təhqir etmək, hətta ehtiyatsız sözlə belə incitmək qəbuledilməzdir" (6, s. 53).

Baxılan problem nöqteyi-nəzərindən M. Uolserin tolerantlıq məsələsinə mədəni və dini, insanların həyat tərzindəki fərqliliklərə dözümlülük münasibəti kimi baxılmasına və bu prizmadan araşdırılmasına verdiyi böyük töhfəni qeyd etməmək olmaz. Bu baxımdan o tolerantlığı dünyanı qorumaq naminə fərqliliklərə təvazökar bir münasibəti ehtiva edən bir ictimai quruluş kimi başa düşürdü. Onun fikrincə, tolerantlıq – passiv, rahatlıq, fərqliliklərə yumşaq yanaşma mövqeyidir; başqalarına açıqlıq, maraq, hörmət, dinləmək, öyrənmək istəyidir; insanlığın çiçəklənməsi üçün vacib bir şərt kimi qəbul edildiyi fərqlərin həvəslə təsdiqlənməsi ilə hər bir kişiyə və ya bir qadına tam seçim sərbəstliyi verilməsidir" (15, s. 26). Tədqiqatçı tərəfindən tolerantlığa imkan verən beş növ siyasi sistem, tolerant cəmiyyətlərin beş modeli müəyyən edilmişdir: çoxmillətli imperiyalar, beynəlxalq birliklər, konsosiativ (birgə) quruluş, milli dövlətlər, immiqrant cəmiyyətlər. Bundan əlavə, onun tərəfindən tolerant münasibətlərə əsaslanmalı olan müxtəlif cinslərin nümayəndələri - kişilər və qadınlar arasındakı münasibətlər problemi də ortaya qoyulur (15).

Cəmiyyətdəki tolerantlıq problemi rus filosofu V.A. Lektorski tərəfindən də araşdırılmışdır. O, tolerantlıq fenomeninə fərqli baxışları təmsil edən cəmiyyətdə tolerantlıq modellərinin müəyyənləşdirilməsinə bir yanaşma təklif edir: tolerantlıq fərqli baxışların, inancların və praktik hərəkətlərin mövcudluğuna laqeydlik kimi; qarşılıqlı anlaşmanın mümkünsüzlüyü kimi (tolerantlıq başqasına hörmət kimi çıxış edir, eyni zamanda həmin şəxsi anlaya bilmir və qarşılıqlı əlaqə qura bilmir); başqalarının zəifliyinə təslim olmaq və paralel olaraq onlara qarşı müəyyən bir nifrətlə yanaşma kimi; öz təcrübəsi və dialoqunun genişləndirilməsi kimi (tolerantlıq, dialoq nəticəsində mövqelərin qarşılıqlı dəyişdirilməsinə gətirən başqa bir mövqeyə hörmət kimi) çıxış edir (10, s. 46-54).

İ.Z. Skovorodkinaya görə tolerantlığın inkişaf dinamikasını bir neçə mərhələyə ayırmaq olar: tolerantlıq dini dözümlülük kimi; tolerantlıq fərqli dünyagörüşlərə dözümlülük kimi; tolerantlıq digər əqidə təmsilçilərinə, siyasi qruplara, ənənələrə, əxlaqi prinsiplərə dözümlü münasibət kimi, tolerantlıq bəşəriyyətin yaşaması üçün vacib şərt kimi, tolerantlıq başqa bir insana hörmət forması kimi, tolerantlıq insanlar arasında məhsuldar bir iş birliyi elementi kimi (12, s. 91).

Beləliklə, hazırda tolerantlıq digər dünyagörüşlərin, siyasi yönümlərin, ənənələrin və mənəvi vərdişlərin nümayəndələrinə qarşı dözümlülüyü əhatə edir. Dözümlülük insanlar arasında səmərəli əməkdaşlıq mühitinin vacib və zəruri bir hissəsidir. Müxtəlif siyasi sistemlərin, mədəniyyətlərin, dünyagörüşlərin fikir plüralizmi və dialoqu müasir şəraitdə insanın yaşaması üçün zəruri şərt halına gəlir və onun praktik dəyəri ölçüyəgəlməz dərəcədə artır.

Beləliklə, tolerantlıq insan elminin müxtəlif sahələrində bir araşdırma mövzusu olaraq: pedaqogika, psixologiya, fəlsəfə, sosiologiya, etika, politologiya, etiologiya, mədəniyyətşünaslıq, tibb kimi bir neçə əsas mənanı özündə cəmləşdirir: orqanizmin bu və ya digər amillərin mənfi təsirinə (psixoloji, ekoloji, emosional) dözmək qabiliyyətini; orqanizmin hər hansı bir maddənin, zəhərin mənfi təsirlərinə dözmə qabiliyyətini; müəyyən siyasi qüvvələrin iqtidarda olduqları təqdirdə, sıralarında müxalifət nümayəndələrinin varlığını qəbul etməyə hazır olmaları; xalqların, millətlərin, dinlərin xüsusiyyətləri ilə əlaqəli digər növ baxışlara, fikirlərə, əxlaqa, hisslərə, vərdişlərə, davranışa, dünyagörüşünə, başqasının həyat tərzinə, inanclarına dö-

zümlülük və güzəşt; mədəniyyətin xüsusiyyətinə, vətəndaş razılığına aparan yol, söz azadlığı prinsipinə riayət etmək üçün zəruri şərt; başqalarının fikirlərinə, inanclarına, davranışlarına, uşaqlara qarşı dözümlülük və məhəbbət; fərqli millətlərdən olan insanlar arasında nifrət və düşmənçiliyin olmaması deməkdir.

**Məqalənin aktuallığı.** Azərbaycan Respublikasında milli mədəniyyətə əsaslanmaqla bütün vətəndaşların hüquq və tələbatlarının təmin olunmasına çox münbit şərait yaradılmışdır. Bütün bunlara baxmayaraq, inteqrasiya etdiyimiz qabaqcıl dünya dövlətlərində, xüsusilə də super dövlətlərdə etnik və milli zəmində qruplararası qarşıdurma, ekstremizm, aqressiya meyllərinin güclənməsi üçün təbliğatı işlər, dini kitablar, dini qruplaşma kimi hallar tez-tez müşahidə olunur və bu, qəsdən başqa ölkələrə də ötürülür. Getdikcə, uşaqlar arasında da xoşagəlməz, qəddar, aqressivlik hallarının geniş yayılmasına şərait yaranır.

**Məqalənin elmi yeniliyi.** "Tolerantlıq" anlayışının pedaqoji mahiyyətinin müəyyənləşdirilməsindən; "tolerantlıq tərbiyəsi" və "tolerantlığın pedaqoji tərbiyə vasitəsi" anlayışlarının açıqlanmasından; tolerantlıq növlərinin təsnifatlarının təhlili və sistemləşdirilməsindən ibarətdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Bu, ondan ibarətdir ki, kiçik məktəb yaşında olan uşaqlarda tolerantlıq tərbiyəsinin imkan və yollarının, onun vasitələrinin pedaqoji universitetlərin tədris planlarına daxil olan "Uşaqlarda tolerantlıq tərbiyəsi ilə bağlı pedaqoji kadrların hazırlanması" ixtisaslaşdırılmış xüsusi kurs (seçmə fənn) proqramının hazırlanmasında və həyata keçirilməsində; uşaqlarda tolerantlıq tərbiyəsi ilə bağlı ibtidai sinif müəllimlərinin hazırlanmasına dair təlimat və metodik vəsaitlərin hazırlanmasında istifadə oluna bilər.

## Ədəbiyyat

1. Aslanova R. Qloballaşma və mədəni müxtəliflik. Bakı, 2004, 264 s.

2. Əliyev P.B. Tolerantlıq tərbiyəsinin sistemi // Azərbaycan Beynəlxalq Universitetinin xəbərləri. Pedaqoji və psixoloji elmlər seriyası. 2009, № 3, s. 28-37.

3. Ömərov V. Vətəndaş cəmiyyəti və tolerantlıq. "Səs" qəz., 2012, 3 iyul.

4. Аврелий М. Размышление Римского императора Марка Аврелия о том, что важно для самого себя. М.: Репр. Изд., 1991, 64 с.

5. Аристотель. Сочинения: в 4 т.– М.: АН СССР, 1983, т. 4, 829 с.

6. Додонов В.И. Приоритетные национальные ценности духовной культуры и образования в трактовке отечественных философов и педагогических мыслителей конца XIX – начала XX вв. // Национальные ценностные приоритеты сферы образования и воспитания (вторая половина XIX – 90-е годы XX века) / Под ред. З.И. Равкина. – М.: ИТОП РАО, 1997, с. 18-61.

7. Ильин Е.Н. Собрание сочинений: в 10 томах / Сост. Ю.Т. Лисицын. М.: Русская книга, 1994, т. 3, 592 с.

8. Кант И. Сочинения в 6 т. М.: Мысль, 1966, т. 4, 305 с.

9. Кант И. Сочинения в 6 т. – М.: Мысль, 1966, т. 6, 286 с.

10. Лекторский В.А. О толерантности, плюрализме и критицизме // Вопросы философии, 1997, № 11, с. 46-54.

11. Розанов В.В. Сочинения: в 2 т. – М.: Религия и культура, 1990, т. 1. 639 с.

12. Сковородкина И.З. Национальное образование на Архангельском Севере (1917-1999 годы) Монография. – Архангельск: Поморский университет им. М.В. Ломоносова, 2001, 121 с.

13. Смысл жизни: Сокровищница русской религиозно-философской мысли: Антология / Общ. Ред. Н.К. Гаврющина. М.: Прогресс, 1994, 592 с.
14. Трубецкой С.Н. О природе человеческого сознания. М.: Республика, 1994, 432 с.
15. Уолцер М. О терпимости. Перевод с англ. Яз. И. Мюрнберга. М.: Идея-Пресс, Дом интеллектуальной книги, 2000, 160 с.

**Р.А. Тагиева**

## Постановка проблемы толерантности в истории и теории гуманитарных наук

## Резюме

Данный подраздел включено понятие «воспитание толерантности», выделеныи анализированы этапы развития проблемы воспитания толерантности в истории и теории педагогики, представлена нормативно-правовая база, показанкак педагогический процесс специфика воспитания толерантности, обоснована сензитивность (чувствительность) начального школьного возраста в формировании терпимости.

**R.A. Tagiyeva**

## Problem of tolerance ın the hıstory and theory of the humanıtıes

## Summary

This paper includes the concept of "education of tolerance", identifies and analyzes the stages of development of the problem of education of tolerance in the history and theory of pedagogy, presents a legal framework, shows the specifics of education of tolerance as a pedagogical process, the sensitivity of primary school age in the formation of tolerance) is justified.

**Redaksiyaya daxil olub:** 04.01.2021